BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT 365.35; 331.25**

# ƏHALİNİN SOSİAL-İQTİSADİ HÜQUQLARININ (SOSİAL MÜDAFİƏSİNİN) SƏMƏRƏLİ HƏYATA KEÇİRİLMƏSİNDƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ ROLU

**A.M.QASIMOV*, M.A.ƏLİYEV****

***Bakı Dövlət Universiteti***

**kasumov-bsu@rambler.ru, **aliyev.mayis@mail.ru*

*Bu məqalədə əhalinin sosial-iqtisadi hüquqlarının (sosial müdafiəsinin) səmərəli həyata keçirilməsində qeyri-hökumət təşkilatlarının rolu ilə bağlı məsələlər araşdırılmışdır. Məqalədə vətəndaş cəmiyyəti institutlarının mühüm tərkib hissələrindən biri olaraq fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının cəmiyyətin inkişafında, əhalinin sosial müdafiəsinin səmərəli həyata keçirilməsində mühüm rolu vurğulanır. Müəllifin fikrincə, sosial-iqtisadi hüquqların səmərəli reallaşdırılması istiqamətində əsas məsələlərdən biri qeyri-hökumət təşkilatlarının şəxsində cəmiyyətin özünün hüquqların reallaşması prosesində fəallığının artırılması və iştirakının təmin edilməsidir.*

**Açar sözlər:** sosial müdafiə, sosial-iqtisadi hüquqlar, qeyri-kommersiya təşkilatları, vətəndaş cəmiyyəti, sosial siyasət, iqtisadi inkişaf

Dövlət Konstitusiya ilə öz üzərinə insan və vətəndaş hüquq və azadlıqlarını tanımaq, əməl etmək və istənilən qanunsuz müdaxilə və məhdudlaşdırma hallarından müdafiə etmək öhdəliyi götürmüşdür. Dövlətin bu konstitusion vəzifəsinin mahiyyəti ondan ibarətdir ki, vətəndaşlara təqdim olunan hüquq və azadlıqlar boş bəyanat olaraq qalmasın və real surətdə həyata keçirilsin və müdafiə edilsin. Bu baxımdan sosial-iqtisadi hüquqlar da istisna deyil.

Sosial-iqtisadi hüquqlar insanın bütün hüquq və azadlıqları sisteminin elementləri ilə sıx qarşılıqlı asılılıq və əlaqədə olmaqla, həm ümumi, həm də özünəməxsus spesifik xüsusiyyətləri və əlamətləri ilə xarakterizə olunur. Bu növ hüquqların hüquq sisteminin strukturuna xas olan ümumiliyinin mahiyyəti ondan ibarətdir ki, onlar insanın cəmiyyətdə layiqli mövqe tutması, cəmiyyətin tam bərabərhüquqlu üzvü olması, insan ləyaqətinin yüksək tutulması, ona hörmət olunmasına xidmət edir.

İnsanın sosial, iqtisadi və mədəni hüquqları onun hüquq və azadlıqları sisteminin çox mühüm tərkib hissələrindən birini təşkil edir. Bu hüquqların reallaşması imkanları və səviyyəsi müasir cəmiyyətin əsas atributlarından biri kimi çıxış etməklə, onun yetkinlik dərəcəsini ifadə edir və hərtərəfli inkişafını şərt-

ləndirir. Bu, eyni zamanda, müasir demokratik-hüquqi dövlətin əsas prinsip və elemetlərindən biridir. Ölkənin və cəmiyyətin fundamental inkişafının əsaslarından birinə çevrilmiş bu normalar insanın həyat və fəaliyyətinin bütün sferalarına sirayət edir. Sosial-iqtisadi hüquqlara insanın konstitusion hüquqlarından biri kimi yanaşılır və hüquqlar sisteminin altsistemi kimi nəzərdən keçirilir.

A.A.Mişin qeyd edir ki, sosial-iqtisadi hüquq və azadlıqlar şəxsiyyətin hüquqi vəziyyətini vətəndaş cəmiyyətinin üzvü kimi müəyyən edir (7, 54).

N.V.Putilo sosial hüquqları özünün və ailəsinin layiqli həyat şəraitini təmin edə bilməyən şəxslərin cəmiyyət və dövlət tərəfindən müdafiəsi və dəstəklənməsi üzrə imkanlar kimi xarakterizə edir (9, 17).

K.V.Aranovskinin fikrincə, sosial-iqtisadi hüquqlar insanın ictimai sərvətlərdən və bəşəriyyətin əldə etdiyi nailiyyətlərdən faydalanmasını təmin edir (5, 367).

Bəzən isə qeyd edilir ki, sosial-iqtisadi hüquq və azadlıqların reallığı insanın azad inkişafını və layiqli həyat səviyyəsini təmin edərək dövləti sosiallaşdırır (3, 10).

Ş.İ.Əliyev sosial hüquqları cəmiyyətdə sosial gərginliyin aradan qaldırılması məqsədilə əhalinin sosial müdafiəsinin həyata keçirilməsi və praktiki təşkili ilə bağlı ictimai münasibətləri tənzimləyən beynəlxalq hüquq institutu kimi nəzərdən keçirir. İnsan hüquqları anlayışının ayrılmaz hissəsi olan sosial hüquqlar ümumi insan hüquqları qrupunda formalaşmışdır. Buna görə də, sosial hüquqlar ümumi insan hüquq və azadlıqları kompleksinin yaranması, tanınması, möhkəmlənməsi və müdafiəsi problemlərinin əlamətlərini özündə daşıyır. Müəllifin fikrincə, sosial hüquqların həyata keçirilməsi digər hüquqlara nisbətən daha çevik mexanizm vasitəsilə baş verməlidir (3, 5).

Hüquq ədəbiyyatında göstərildiyi kimi, insan həyatının ali sosial dəyəri onun qurduğu dövlət tərəfindən təmin edilməlidir (2, 83). Bu baxımdan sosial, iqtisadi və mədəni hüquqların tam reallaşmasına qarşı olan istənilən xarakterli mənfi halların, proseslərin qarşısının alınması ilə bağlı təxirəsalınmaz və ardıcıl şəkildə kompleks tədbirlərin həyata keçirməsi dövlətin sosial siyasətinin əsas prioritetlərindən olmalıdır. Bu proseslərin uğurla həyata keçirilməsi resurs potensialının formalaşdırılması və resursların artırılmasını zəruri edir. Burada dövlətin üzərinə düşən öhdəliklərdən biri də bu hüquqların tam həyata keçirilməsi istiqamətində mövcud resurslardan maksimum dərəcədə səmərəli və ədalətli şəkildə istifadə olunmasına nail olmaqdır. Bu zaman ölkənin hər bir vətəndaşının minimum həyati tələbatlarının təmin edilməsi hüququ reallaşmalıdır və iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq dövlət, öz vətəndaşlarının bu hüququna hörmətlə yanaşaraq, üzərinə düşən bu öhdəliyi həyata keçirməlidir. Ona görə də, hətta zəif inkişaf etmiş, yoxsul dövlətlər belə bu öhdəlikdən kənarlaşa bilməzlər.

İqtisadi, sosial və mədəni hüquq və azadlıqların həcmi, həyata keçirilməsi səviyyəsi xeyli dərəcədə dövlətin iqtisadi vəziyyətdən və ehtiyatlardan asılıdır və buna görə də bu hüquqların həyata keçirilməsinin təminatları birinci nəsil

hüquqlara – mülki və siyasi hüquqlara nisbətən az inkişaf etmişdir (8, 159).

Bu hüquqların reallaşması üçün zəruri resurslara insan, texnoloji, informasiya, təbii və maliyyə resursları aiddir. Burada həm dövlətin öz daxili imkanları, həm də qarşılıqlı əməkdaşlıq çərçivəsində digər dövlətlərdən alınan müxtəlif istiqamətli yardımlar, o cümlədən cəmiyyətin özünün sahib olduğu resurslar, potensial imkanlar da nəzərdə tutulur.

Dövlət özünün müəyyən inkişaf mərhələsində bəzi funksiyalarını, o cümlədən əhalinin sosial müdafiəsi və sosial-iqtisadi hüquqların reallaşdırılması sahəsində funksiyalarının bir qismini vətəndaş cəmiyyətinin institutlarına ötürməklə demokratik təsisatların və cəmiyyətin inkişafına təkan vermiş olur. Müasir dövrdə Azərbaycanda həyata keçirilən sosial dövlət modeli quruculuğunun ən mühüm istiqamətlərindən birini vətəndaş cəmiyyətinin institutları ilə, əsasən də qeyri-hökumət təşkilatlarının dövlət orqanları ilə birgə əməkdaşlıq çərçivəsində sosial layihələrin həyata keçirilməsinə cəlb edilməsi çıxış edir və bu, inkişaf etmiş xarici ölkələrin təcrübəsinə uyğun gəlir.

Dünya təcrübəsi göstərir ki, bütövlükdə sosial xidmətlərin göstərilməsi sahəsində QHT-lərin inkişafı üçün dövlət dəstəyi zəruridir. Ölkəmizdə mövcud olan QHT-lər və insanlar arasında vətəndaş cəmiyyəti quruculuğuna maraq son illərdə daha da güclənib. Buna səbəb QHT-lərin uğurlu fəaliyyəti və dövlətin vətəndaş cəmiyyətinin formalaşmasına verdiyi dəstək, bu sahədə qəbul etdiyi qanunlar, qərarlar səbəb olub. Bu qanunların qəbulundan istifadə edən QHT-lər öz fəaliyyətini daha da genişləndirib (4).

"Vətəndaş cəmiyyəti" və "dövlət" anlayışları bir-birini tamamlayan, daxili əlaqəsi olan vahid ictimai orqanizmdir. Bununla bərabər, sözügedən hər iki anlayış arasında müəyyən hədd var ki, bu da qanunauyğun prosesdir. Hər iki anlayış həm sosial-iqtisadi sahələrin inkişafında, həm də siyasi həyatın canlanmasında mühüm rol oynayır. Bəzi mütəxəssislər belə düşünürlər ki, Azərbaycanda vətəndaş cəmiyyətinin tarixi çox da uzaq dövrə gedib çıxmır: vətəndaş cəmiyyəti anlayışı respublikamız müstəqillik qazandıqdan sonra ölkəmizə Qərbdən inteqrasiya edilib. Digərləri də bu qənaətdədirlər ki, vətəndaş cəmiyyətinin əsası XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər davam edən xeyriyyəçilik və maarifçilik hərəkatı ilə qoyulub. Bu düşüncənin tərəfdarlarının fikrincə, o dövrdə xeyriyyə cəmiyyətləri yaşadığımız indiki zamanın QHT-ləri ilə mahiyyət etibarı ilə fərqlənməyən məqsədlərə, strukturlara, fəaliyyət formalarına malik olmuşlar. Bu da təbiidir. Çünki vətəndaş cəmiyyəti əsasən liberal dəyərlərin mövcud olduğu cəmiyyətdə sürətlə inkişaf edir (11).

Bir sıra hallarda vətəndaş cəmiyyətinin formalaşmasına, onun fəaliyyətinə bir siyasi hadisə kimi də yanaşır və hadisə olaraq onu daha da siyasiləşdirirlər. Lakin əslində o, cəmiyyətin yetkinliyini, inkişaf səviyyəsinə xarakterizə edən bir hadisədir və onun inkişafı iqtisadi, siyasi, sosial, mənəvi, əxlaqi, dini psixoloji və digər münasibətləri özündə ehtiva edir. Bu münasibətlərin mərkəzində isə insan dayanır. O, özünün tələbatları, maraqları və onların təmin olunması fonunda bu münasibətlərin, eləcə də ictimai inkişafın əsas aparıcı qüvvəsi

olaraq, vətəndaş cəmiyyətinin üzvünə çevrilir.

Qeyri-kommersiya təşkilatları vətəndaş cəmiyyətinin təşkilati əsası kimi nəzərdən keçirilir. QHT-lər vətəndaş cəmiyyəti fəlsəfəsinin, onun ideyalarının həyata keçirilməsində, reallaşmasında mühüm rol oynayır. QHT-lərsiz bu fəaliyyəti həyata keçirmək çətin məsələ olardı. Vətəndaş cəmiyyəti özü təşkil olunan və özü-özünə inkişaf edən sistemdir. Vətəndaş cəmiyyətinin əsas atributlarından olan QHT-lərin onun formalaşmasında və inkişafında rolu böyükdür. QHT-lər vətəndaş cəmiyyətinin üst təbəqəsini təşkil edən əsas amillərdən biridir. Vətəndaş cəmiyyətinin bir tərkib hissəsi olaraq QHT-lərin cəmiyyətdə əsas rolu vətəndaşların tələbatının ödənilməsi istiqamətində onların öz potensial qüvvələrinin səfərbər edilməsindən, bu yöndə vətəndaş şüurunun artırılması və işlək mexanizmlərin formalaşdırmasından ibarətdir (4).

Ölkədə sosial mühiti yaxşılaşdırmaqla qeyri-kommersiya təşkilatları sosial inkişafın zəruri şərti olan sosial və siyasi sabitliyin təmin edilməsinə mühüm töhfə vermiş olurlar.

Qeyri-hökumət təşkilatları sosial, mədəni, təhsil, elm, hüquqların müdafiəsi, hüquqi yardım göstərilməsi və s. kimi ictimai rifaha nail olunmasına yönələn məqsədlərlə yaradıla bilər.

Qeyri-hökumət təşkilatlarının fəaliyyəti əhalinin təhsil və sağlamlıq səviyyəsi göstəricilərinin yaxşılaşdırılmasına kömək edir. Bu isə iqtisadi səmərəliliyi artırır və iqtisadiyyatın daha böyük templərlə inkişafını təmin edir (10, 407-437). Qeyri-kommersiya təşkilatları gəlirlərin, ictimai resursların cəmiyyətdə rasional şəkildə bölüşdürülməsində müstəsna rol oynayırlar (6).

Qeyri-kommersiya sektoru əhaliyə səmərəli xidmətlər göstərir. Onlar müxtəlif əhali qruplarının sosial ehtiyaclarına, yeni sosial problemlərə daha operativ reaksiya verə bilirlər. Bir çox müasir sosial xidmət prosedurları və metodları, qabaqcıl sosial innovasiyalar bəzən ilk olaraq qeyri-hökumət təşkilatları tərəfindən tətbiq olunur, daha sonra isə geniş vüsət almağa başlayır.

Müxtəlif əhali qruplarının, xüsusən də zəif sosial təbəqələrin maraqlarını ifadə etməklə qeyri-kommersiya təşkilatları demokratiyanın inkişafında mühüm rol oynayırlar. İnkişaf etmiş demokratik ölkələrdə sosial-iqtisadi layihələrin həyata keçirilməsində qeyri-kommersiya təşkilatlarının dəstəyinə mühüm önəm verilir. Belə təcrübə Azərbaycanda da uğurla tətbiq olunur. Bu gün Azərbaycanda qeyri-hökumət təşkilatlarının dövlət orqanları ilə birgə əməkdaşlıq çərçivəsində və ya müstəqil olaraq həyata keçirdikləri sosial layihələrdən danışarkən ilk növbədə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etməmək mümkün deyil. Belə ki, Heydər Əliyev Fondu vətəndaş cəmiyyətinin elementi olaraq dövlətin sosial layihələrinin həyata keçirilməsində mühüm işlər görməklə, Azərbaycan dövlətinin sosial funksiyasının reallaşdırılmasına əməli köməklik göstərir.

Beləliklə, dövlət tərəfindən sosial, iqtisadi və mədəni hüquqların reallaşmasına şərait yaradan bütün mümkün vasitələrə tam nail olmaq imkanlarını təmin etmək üçün fəal tədbirlər həyata keçirilməlidir. Bu istiqamətdə əsas məsələlərdən biri qeyri-hökumət təşkilatlarının şəxsində cəmiyyətin özünün hüquq-

ların reallaşması prosesində fəallığının artırılması və iştirakının təmin edilməsidir ki, artıq bu addım inkişaf etmiş cəmiyyətlərdə uğurla sınaqdan çıxmışdır.

Bu gün vətəndaş cəmiyyəti institutlarının mühüm tərkib hissələrindən biri olaraq fəaliyyət göstərən qeyri-hökumət təşkilatları cəmiyyətin inkişafında, əhalinin sosial müdafiəsinin səmərəli həyata keçirilməsində çox mühüm rol oynayırlar. Ölkəmizdə onların inkişafı hələ inqilabdan əvvəlki vaxtlardan etibarən təşəkkül tapmağa başlamış və əsas etibarilə sosial-ictimai sahələrdə və xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuşlar.

Beləliklə, hazırda cəmiyyətdə demokratiya, şəffaflıq, sosial həmrəylik və məsuliyyət prinsiplərinin dolğun şəkildə reallaşdırılmasında qeyri-hökumət təşkilatlarının rolu xüsusi qeyd edilməlidir. Respublikamızda vətəndaş cəmiyyətinin formalaşması və inkişafı həm cəmiyyətin özünün inkişaf səviyyəsi, onun fəallığı, həm də dövlətin bu proseslərə müsbət münasibətinin olmasından çox asılıdır. Bu baxımdan hazırki dövrdə vətəndaş cəmiyyəti və dövlət hakimiyyəti institutları arasında qarşılıqlı münasibətlərin inkişaf perspektivləri hər iki tərəfin üzərinə bir sıra öhdəliklər qoyur və yalnız həmin öhdəliklərin layiqli icrası nəticəsində demokratik, şəffaf və sosial baxımdan həmrəy olan cəmiyyət quruculuğuna nail olmaq olar.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2014, 100 s.
2. Cəfərov İ.M. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2004, 552 s.
3. Əliyev Ş.İ. İnsan hüquqları sistemində sosial hüquqlar: nəzəri və praktiki məsələlər: Dərs vəsaiti. Bakı: BDU, 2008, 252 s.
4. Vətəndaş cəmiyyətini qeyri-hökumət təşkilatları olmadan təsəvvür etmək mümkün deyil / http://www.anl.az/down/meqale/525/2014/yanvar/347700.htm
5. Арановский К.В. Государственное право зарубежных стран. М.: Форум, 2000, 768 с.
6. Государственная политика в области содействия гражданским инициативам: позиция неправительственных организаций / www.demokratia.ru
7. Мишин А.А. Конституционное (государственное) право зарубежных стран. М.: Юститинформ, 2004, 676 с.
8. Права человека. Учебник для вузов / Отв. ред. Е.А.Лукашева. М.: НОРМА, 2003, 364 с.
9. Путило Н.В. Основы правового регулирования социальных прав: Автореф. дисс. канд.юрид. наук. М., 1999, 28 с.
10. Mankiw N. Gregory, David Romer, David N. Weil. A Contribution to the Empirics of Economic Growth // The Quarterly Journal of Economics, 1992, pp. 407-437
11. http://www.xalqqazeti.com/az/news/social/2583

**РОЛЬ НЕПРАВИТЕЛЬСТВЕННОЙ ОРГАНИЗАЦИИ В ЭФФЕКТИВНОМ ОСУЩЕСТВЛЕНИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ПРАВ (СОЦИАЛЬНОЙ ЗАЩИТЫ) НАСЕЛЕНИЯ**

**А.М.КАСУМОВ, М.Н.АЛИЕВ**

**РЕЗЮМЕ**

В данной статье рассматриваются вопросы, связанные с ролью неправительственной организации в эффективном осуществлении социально-экономических прав (социальной защиты) населения. В статье отмечается значительная роль неправительственной организации, которая функционируется как составная часть института гражданского общества в развитии эффективного осуществления социальной защиты населения. По мнению автора, одним из вопросов эффективной реализации социально-экономических прав в лице неправительственной организации является повышение активности и обеспечения участия самого общества в процессе реализации своих прав**.**

**Ключевые слова:** социальная защита, социально-экономические права, некоммерческая организация, гражданское общество, социальная политика, экономическое развитие

**THE ROLE OF NON-GOVERNMENTAL ORGANIZATIONS IN THE EFFECTIVE IMPLEMENTATION OF SOCIO-ECONOMIC RIGHTS (SOCIAL SECURITY) OF THE POPULATION**

**A.M.GASIMOV, M.N.ALIYEV**

**SUMMARY**

This article discusses issues related to the role of non-governmental organizations in the effective implementation of socio-economic rights (social security) of the population. The article notes the significant role of non-governmental organization that functions as an integral part of civil society in the development of effective implementation of social protection. According to the author, one of the issues of effective implementation of socio-economic rights in the face of a non-governmental organization is to increase the activity and participation of the society in the exercise of their rights.

**Key words:** social protection, social and economic rights, non-profit organizations, civil society, social policy, economic development